*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 1* *ISSN: 2663-4406*
*Səhifə: 132-137* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.1.132*

# 1980-ci illər Azərbaycan nəsrində repressiya mövzusu
## (*"Qətl günü" romanı əsasında*)

**Mehman Həsənli**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: mehmanhasanli @anas.az

**Annotasiya**. Məqalədə 1980-ci illər Azərbaycan nəsrinin ən yaxşı roman nümunələrindən biri kimi meydana çıxan Yusif Səmədoğlunun "Qətl günü" əsərində 1930-cu illərin faciəvi repressiya hadisələrinin əksi araşdırmaya cəlb edilmişdir. "Qətl günü" romanı imperiyanın Azərbaycan xalqının başına gətirdiyi və yüzlərlə ziyalının qətlinə səbəb olan repressiyanı bütün mahiyyəti ilə üzə çıxaran və dünya ədəbiyyatının bir sıra müasir aparıcı tendensiyalarını özündə ehtiva edən əsər kimi diqqəti cəlb edir. Araşdırmada yazıçının şəxsi bioqrafiyasının roman mətnində necə əks olunması tədqiqata cəlb edilmişdir.
**Açar sözlər:** Yusif Səmədoğlu, "Qətl günü", Sədi əfəndi, roman, repressiya

**Məqalə tarixçəsi:** göndərilib – 03.02.2025; qəbul edilib – 12.02.2025

# The theme of repression in Azerbaijani prose of the 1980s
## (*Based on the novel "The day of Murder"*)

**Mehman Hasanli**
Doctor of Philosophy in Philology, Associate professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: mehmanhasanli @anas.az

**Abstract.** The article explores "The Day of Murder", a novel by Yusif Samadoglu, which emerged as one of the most significant examples of Azerbaijani prose in the 1980s. The novel is examined as a literary reflection of the tragic repressions of the 1930s. It reveals, in depth, the repressive policies carried out by the empire against the Azerbaijani people, which led to the execution of hundreds of intellectuals. Moreover, the novel stands out as a work that incorporates several leading trends of contemporary world literature. The study also investigates how the author's personal biography is reflected within the text of the novel.
**Keywords**: Yusif Samadoglu, "The Day of the Murder", Sadi Efendi, novel, repression

**Article history:** received – 03.02.2025; accepted − 12.02.2025

### Giriş / *Introduction*

Yazıçı Yusif Səmədoğlunun təkcə bu dövrün deyil, ümumilikdə Azərbaycan nəsrinin ən yaxşı nümunələrindən olan "Qətl günü" (1984) romanı modern Azərbaycan romanının faktı kimi həm forma, həm də məzmun keyfiyyətləri baxımından hadisəyə çevrildi. Ümumilikdə türk xalqları

nəsrində funksionallaşan repressiya mövzusu "Qətl günü" romanında əsas süjet xətti kimi keçməkdədir. Üç zaman və məkan qatının təsvir olunduğu romanda tarixi şəxsiyyətlə bədii obraz arasında bənzər paraleli də apara bilərik. Əsərin qəhrəmanı Sədi Əfəndinin "Qətl günü" adlı romanı var. Roman əsərdə tarixi göstərilmədiyi zamandakı hadisələrdən bəhs edir. Adsız hökmdarın qalanı fəth etməsi, qaladakı satqın şairlərin ənam olaraq xalqın sevimli şairinin başını istəməsi və şairin edamı Sədi Əfəndinin romanında baş verən hadisələrdir.

**Əsas hissə / *Main part***

Romandakı hadisələr bu və ya digər dərəcədə Qacarın Qarabağa yürüşü və xalqın sevimli şairi Molla Pənah Vaqifin ölümünün tarixi gerçəkliyi ilə üst-üstə düşür. Yazıçının atası, görkəmli Azərbaycan şairi Səməd Vurğunun "Vaqif" dramı tarixi zaman baxımından eyni dövr və hadisədən bəhs edir. Akademik İsa Həbibbəyli "Qətl günü" romanını Azərbaycan xalqının Molla Pənah Vaqifdən Səməd Vurğuna qədərki mürəkkəb və keşməkeşli taleyinin ədəbiyyatda mükəmməl ümumiləşdirilməsi hesab edərək yazır: *"Romanın uğurlu çıxmasının, "ədəbi hadisə" səviyyəsində qəbul edilməsinin əsas səbəblərindən biri kimi Yusif Səmədoğlu tərəfindən atası Səməd Vurğunun tərcümeyi-halında və yaradıcılıq taleyində dərindən və əsaslı şəkildə, görünən və görünməyən tərəfləri ilə müşahidə edilməsi ilə əlaqədardır"* [3, s.359]. Yazıçı özü də dəfələrlə "Qətl günü"nün böyük şair Səməd Vurğunun *"Şair, hökmdarın hüzurundasan"* [11, s.99] fikrindən yarandığını bildirmişdir. Şah Qacarın Qarabağa yürüşü və dövrün görkəmli şairi Molla Pənah Vaqifin edamı və qeyri-müəyyən dövrdəki hökmdarın qalaya yürüşü və satqınlıq nəticəsində xalqın sevimli şairinin edamı arasında bənzərliklər aşkardır.

Səməd Vurğun repressiyanın fiziki qurbanlarından olmasa da, həmin illərin dəhşətini mənəvi olaraq yaşamışdır. Həmin illərin hər gününü Səməd Vurğun təhdid, sorğu-sual, ittihamlar içində keçirmişdir. Şairin həyat yoldaşı Xavər xanım həmin illərin mənzərəsini, şairin keçirdiyi iztirabları öz xatirələrində yazmışdır. Heç şübhəsiz ki, "Qətl günü" kimi mükəmməl əsərin ortaya çıxmasında həmin xatirələrin, ailənin yaşadıqlarının birbaşa təsiri olmuşdur: *"Gecələr qonşu qapılar döyülər, kimlərisə camaatın "qara qarğa" adlandırdıqları qara maşınlara basıb aparırdılar.... Qucağımda körpə uşaq olmasına baxmayaraq, Səməd axşamlar məni təkcə qoyar, evdən çıxıb bir də səhər açılanda gələr, harada olması haqda bir kəlmə də danışmaz, xəyala dalar, gözlərindən isə qəm-qüssə yağardı"* [10, s.12]. Romanda nisbi götürəndə müstəqil mahiyyət kəsb edən və bir-biri ilə varislik əlaqəsi daşıyan tarixi dövrlər əks olunmuşdur. Əsərdə hadisələr Sədi Əfəndinin eyniadlı romanındakı Adsız hökmdardan bəhs olunan qeyri-müəyyən tarixi dövrdə, Sədi Əfəndinin öz taleyinin əks olunduğu 30-cu illər və yazıçının öz dövrü, yəni 70-80-ci illərdə baş verir. Ayrı-ayrı götürdükdə əsərin hissələri müstəqil süjet, kompozisiya və personajlara malikdir. Amma bu hissələri ümumi məqsəd birləşdirir ki, onun elementləri bütün tarixi dövrlərə səpələnmişdir.

Yusif Səmədoğlunun romanında Sədi Əfəndinin yazdığı və Adsız hökmdardan bəhs etdiyi "Qətl günü" romanı vardır. Sədi Əfəndiyə qarşı irəli sürülən ittihamlarda bu süjetdən başlıca fakt, dəlil kimi istifadə olunur. Yazıçının öz şəxsi avtobioqrafiyasından doğan və müşahidələrinin nəticəsi kimi meydana çıxan qəhrəmanları dövrün dəhşətinin real mənzərəsini canlandırmağa imkan verir. Roman içində roman təsiri bağışlayan əsər hər şeydən öncə xalqın qadağan olunmuş tarixini tədqiqata cəlb edir və onun keçmişinə işıq salır. Mövcud reallıq, dövrün ağır şərtləri bədii yaradıcılıq üçün daşlaşmış qəlib, aşılmaz sədd müəyyənləşdirsə belə, sözün qüdrəti hər zaman özünü ifadə etmək üçün bir yol tapmağı bacarmışdır. Bu baxımdan tarix, qədimdə baş vermiş hadisələrə münasibət yaradıcı qələm sahiblərinin dövrünə ən yaxşı münasibətini ifadə etməyə yardım etmişdir. Bədii yaradıcılıqda tarixə müraciət əsasən iki məqsədlə edilmişdir. Birinci halda, tarixdə baş vermiş hadisəyə münasibət bildirmək, tarixin qaranlıqlarına işıq salmaq, ikinci halda isə keçmişdə baş vermiş hadisədən vasitə kimi istifadə edərək dövrünün proseslərinə münasibət bildirmək məqsədi daşımışdır.

Şərdən şərin, xeyirdən isə xeyirin doğulması və bu varisliyin zaman və məkandan asılı olmayaraq davam etməsi, bu qüvvələr arasındakı amansız mübarizə yazıçını düşündürmüşdür. Yazıçı şərin zülmü nə qədər dözülməz olsa belə, sonunda Tanrının ədalətinin qələbə çalacağına sonsuz inamı ifadə etmişdir. "Qətl günü" əsərində şərin təmsilçisi hökmdarın "qırmızı" xətti xalqın sevimli şairini edam etdirməsi ilə başlayır və Baba Kahanın dondurucu küləyi hər şeyi buza döndərir. Bu zaman şairin kəsilmiş başı gözü açıq şəkildə olanları müşahidə edir. Xalqın sevimlisi Şairin kəlləsi saraydakı digər iki şair tərəfindən öz satqınlıqlarının əvəzində verilən ənam olaraq istənilərkən, münəccim bunun fəlakətlə nəticələnəcəyi ilə bağlı xəbərdarlıq edir. Bir şairin digərinin başını ənam kimi istəməsi dövrün qəddar hökmdarını belə dəhşətə gətirir: *"Belə məmləkətin bir qalasını yox, cəmi qalalarını almaq olar. Belə məmləkəti yerlə yeksan etmək olar... Mən çox məmləkətlər görmüşəm, amma şairi şairinin başını istədiyi məmləkəti görməmişdim"* [8, s.62].

"Qətl günü"ndə başı kəsilmiş şairin üstündə ağı deyən Üfləmə Qasımın anasının yanıqlı səsi Baba Kahaya çatır və hökmdarı da, Xacə Ənvəri də buza döndərir. Şair gözləri açıq Baba Kahanın ilahi ədaləti bərpa etməsinə tamaşa edir. Ağ buludun funksiyasını Baba Kaha yerinə yetirir. Əsərdə hadisələrin baş verdiyi hər üç dövrdə Baba Kaha ədaləti bərqərar edən obraz kimi çıxış edir. Ədalətin qoruyucusu nə qədər səbr edirsə belə, səlahiyyət verdikləri onu tapdamaqda davam edir. Amma səbr bir gün tükənir və beləliklə cəza mexanizmi işə düşür. *"Məmləkətin ən qoca ağbirçəyinin dediyi son ağı – layla yayılıb, nazik, yanar ipə dönüb, uzanıb-uzanıb dağlar aşıb, ormanlar keçib, gəlib Baba Kahanın həndəvərindəki daşlardan birinə ilişdi və bu daşdan elə bir ah qopdu ki, Baba Kahanın oyumundan gələn səs dünyanı lərzəyə gətirdi:*

*- Sizin kökünüz kəsilsin, ay ikiayaqlı bəndələr!*

*...Dərd də, azar kimi gələndə batmanla gəlir, bacım..."* [8, s.165-166].

Sovet rəhbərliyi qeyd-şərtsiz törətdikləri cinayətlərə görə günahkar idi. Lakin yerlərdə bu "cahanşümul" hərəkatı həvəslə icra edən və bəzən prosesin genişlənməsinə daha da təkan verənlər də kifayət qədər idi və romanda Salahov, Muxtar Kərimli həmin funksiyanı icra edirlər. "Qətl günü"ndə isə xalqın sevimlisi Sədi Əfəndini də öz qələm yoldaşı Muxtar Kərimli şərləmiş və müstəntiq Salahov tərəfindən mühakimə olunmuşdur. Ənənəvi ittihamlar ona qarşı irəli sürülməkdədir. Sədi Əfəndi yazdığı eyniadlı romanına görə, qələm yoldaşı Muxtar Kərimlinin təqdimatı ilə müstəntiq Salahov tərəfindən təqib olunur. Sədi Əfəndinin "Qətl günü"ndə şairin ölümündən sonra Üfləmə Qasımın sayəsində onun yazdıqları gələcək nəsillərə ötürülür. Necə ki şərdən şər doğursa, eləcə də xeyirdən xeyir doğur və bu iki zaman və məkan fərqindən asılı olmadan davam edir. Təsadüfi deyil ki, Səməd Vurğun dindirilməyə aparılarkən "Vaqif" dramını Xavər xanıma vermiş və Mehdixan Vəkilova bu barədə məlumat vermişdir. *"Şair yazıb başa çatdırdığı "Vaqif"in taleyindən daha çox narahat idi. O, əsəri bitirdikdən sonra bir müddət gizli saxlayıb və öz qardaşına belə deyib: "Əgər məni aparsalar, sən tez mənim əsərimi götür və etibarlı yerdə gizlət. Əsərin yerini Xavər bilir"* [9, s.136].

Yusif Səmədoğlunun romanında üç dövrü birləşdirən rəmzi Kirlikir obrazı vardır. Natəmiz məxluq sayılan siçovulun zibillikdə çirkinliklə, şərlə mübarizəsi hökmdarın və onun törəmələri sayılan Salahovların, Muxtar Kərimlilərin yanında ədalətli görünür. Yəni dövrdəki vəziyyət o qədər ifrat dərəcədə pisdir ki, natəmizliklərin şahı siçovul bunların yanında pakdır və bunlara qarşı mövqeyi təbii görünür. Kirlikir şərin varisliyinin şahididir. Salahovu hökmdar törəməsi adlandırması əsərin məzmunundan doğan mücadiləni şərtləndirir. *"Salahov, – dedi, – bu dünyanın balasıdı. Bu dünyanın böyük fəlakətidi. – Qısaca sükutdan sonra: - Hökmdarın törəməsidir"* [8, s.74].

Çingiz Aytmatov da "Kassandra damğası" romanında şərin varisliyinə dair özünün utopik fərziyyəsini irəli sürmüşdür. Onun fikrincə, şər əməllərin, pisliklərin daşıyıcısı olan bütün insanlar həmin kassandra damğası ilə doğulurlar. Yaxın tarixdə İkinci Dünya müharibəsini törətmiş Stalin, Hitler də məhz kassandraların törəməsidir. Romanda sonradan dünyaya bədbəxtlik gətirəcək, şər əməllərin icraçısına çevriləcək insan embrionu ana bətninə düşdükdən ilk bir həftə ərzində özünü büruzə

verir və ananın alnında xalq piqmenti peyda olur. Ç.Aytmatov əsərin süjet xətti üçün doğuşa qarşı çıxan embrionların göndərildiyi işarəsini tapır və həmin embrionlara sahib olan qadının alnında kiçik xal piqmentləri yarandığı qənaətinə gəlir. Bu xalı "Kassandra damğası", mənfi siqnallar göndərən rüşeymi isə "Kassandra embrionu" adlandırır. O, yazır: *"Mənfi nəticəli insan embrionu, ancaq hamiləliyin ilkin həftələrində öz gələcəyinə reaksiya vermək və təhlükə barədə işarə göndərmək üçün fövqəladə bacarığa sahibdir. Sonra bu bacarıq itir. Bu da hər halda dölün zaman keçdikcə öz taleyinə boyun əyməsi ilə əlaqədardır"* [1].

Xeyir və şərin mübarizəsi dünya yaranandan bu günə qədər səngiməyən və törəyərək davam edən prosesdir. Ən qədim mif mətnlərində, dini kitablarda bu mübarizəyə dair müxtəlif əhvalatlar, hadisələr verilmişdir. Müqəddəs kitabı "Avesta" olan Zərdüştlük təliminin əsasında da xeyir və şər allahlarının, Əhrimən və Ahurəmazdanın mübarizəsi durmuşdur. Böyük Azərbaycan şairi Nizami Gəncəvi "Yeddi gözəl", "Sirlər xəzinəsi" poemasında ,"Xeyir və Şər" hekayəsində bu mübarizəni səciyyələndirmişdir. Dünya bina olandan bəri bu iki qüvvənin mübarizəsinə ötən əsrin əvvəllərində Hüseyn Cavid "İblis" əsərində İblisin monoloqu ilə fəlsəfi məna vermişdir:

*Onlar, əvət onlar sizi çignətməyə kafi,*
*Kafi, sizi qəhr etməyə, məhv etməyə kafi...*
*Bən tərk edərim sizləri əl'an, nəmə lazim!*
*Hiçdən gələrək, hiçliyə olmaqdayım azim.*
*İblis nədir? – Cümlə xəyanətlərə bais...*
*Ya hər kəsə xain olan insan nədir?*
*İblis!* [4, s.104]

Bir şər özündən daha böyük şərin, faciənin başlanğıcıdır. Hökmdar beş yaşında axtalanarkən hiss etdiyi qan qoxusunun qisasını qalaları dağıtmaqla, insanları qılıncdan keçirməklə almaq istəyir, amma içindəki qəzəb soyumur:*"Bu, tarixi və psixoloji bir həqiqətdir ki, öz naqisliyini bəla həmişə əlavə bəla ilə tamamlayır. Belə bəla təşnəliyinə təsirli nümunələr romanda çoxdur. Beş yaşlı körpəni saray zirzəmisində axtalayır və qan qoxusu bütün ömrü boyu uşağın zehnində və burnunda qalır. Zorakılıqdan min qat artıq zorakılıq doğur"* [5, s.160].

Hər nə qədər şər mövcuddursa, Tanrının nizamının, xeyirin sonda qələbəsi labüddür. Hər iki yazıçının gəldiyi qənaət də məhz budur. "Qətl günü"ndə Hökmdar və onun varisləri Muxtar Kərimli, Salahovlar şəri təmsil edirlərsə, Şair və onun varisi Sədi Əfəndi xeyir qüvvənin təmsilçiləridir. Şairin əlyazmalarını Üfləmə Qasım qoruyub gələcək nəsillərə ötürürsə, Sədi Əfəndinin romanı uğrunda onun qızı Səlimə xanım və Xəstə alim mübarizə aparır: "*Şairin başını hökmdardan ənam istəyən şairlə yanaşı həyatı bahasına onun əlyazmalarını qoruyan Üfləmə Qasım varsa, Sədi Əfəndini həyatdan küsdürən Muxtar Kərimli ilə bərabər, onun romanını uzaq ellərdə saxlayan bir kimsə varsa, demək, hələ ki, dünyanın sonu deyil. Demək hardasa işıq yanır. Və o işıq yaxşı adamlardan süzülə-süzülə, Baba Kahanın himayəsi ilə əsrlərdən-əsrlərə yol gəlir"* [2, s.184].

Peter Rudyakov "Qətl günü"ndən bəhs edərkən onu "ağrılar romanı" adlandırmışdır. Müəllif özü içində yaşadığı ağrını, kədəri obrazlarının taleyinə köçürmüşdür. Uşaq yaşında xədim edilmiş hökmdarın göz yaşlarını tökməyə məcbur edən, vəziri Xacə Ənvərin tiryəklə unutduğu fiziki ağrıları, Zülfüqar kişinin Saraclı Əhmədi öldürdüyü üçün, xəstə öz sevgilisini satdığına görə çəkdiyi mənəvi ağrıları vardır. Zənnimizcə, bu ağrını doğuran başlıca səbəbə həmin o dövrdə baş verən hadisələrdir. "Qətl günü"ndə repressiya qurbanı olmuş Sədi Əfəndinin qızı Səlimə xanım valideynləri bu terrorun qurbanı olmuşların ümumiləşmiş obrazıdır. Peter Rudyakovun "Arzular, ağrılar romanı" məqaləsində qeyd etdiyi kimi, *"Bir nəsil məhv edilmişdir, növbəti nəslin isə beli qırılmışdır"* [6, s.24]. Təsadüfi deyil ki, Çingiz Aytmatov da uşaqlığından başlayaraq həmin qorxu ilə yaşamış və çox sonralar öz yaradıcı istedadı ilə bu terroru törədənlərdən qisasını almışdır. Amma bu təsirlər

onu ömrünün sonuna qədər izləmişdir.

Qeyd etdiyimiz kimi, Xalq şairi Səməd Vurğun repressiyanın fiziki qurbanı olmasa da, bu dəhşəti mənəvi olaraq yaşamışdır. Dəfələrlə sorğuya çəkilmiş, işi Moskvaya qədər gedib çıxmışdır. Maraqlıdır ki, Səməd Vurğun, oğulları Yusif və Vaqif Səmədoğlunu bir-birinə birləşdirən sirli əlaqə, izaholunmaz varislik mövcuddur. Yusif Səmədoğlu "Qətl günü"ndə insanları bir-birinə bağlayan əsas qüvvənin kədər olduğunu bildirir. Bu kədərin yaranma səbəbini yazıçı izah etmir. Təxminən həmin illərdə yazıçının qardaşı Vaqif Səmədoğlu "Əlimi uzatdım..." şeirində bu kədərin səbəbini izah etmişdir:

*Əlimi uzatdım*
*Sevincə sarı*
*Gördüm yox,*
*Arada kədər dayanıb.*
*Atamı səslədim*
*Köməyə gəlsin,*
*Gördüm yox,*
*Arada qəbir dayanıb.* [7, s.197]

Vaqif Səmədoğlunun şeirlərindəki kədər, Yusif Səmədoğlunun romanındakı qəhrəmanlarının çəkdiyi ağrı, əzab şairin qeyd etdiyi kimi, ataları ilə aralarında qəbir dayanmasından yaranmışdır.

## Nəticə / *Conclusion*

Yusif Səmədoğlu 1980-ci illərdə yazmış olduğu "Qətl günü" romanı ilə modern Azərbaycan nəsrini yeni mərhələyə çıxarmış oldu. Roman xalqın on illər boyu yığılıb qalan repressiya ağrısını bədii planda yüksək peşəkarlıqla ifadə edirdi. Yusif Səmədoğlunun "Qətl günü" romanı təkcə Azərbaycan nəsrində deyil, bu mövzunun aktual olduğu Türk xalqları ədəbiyyatında öz orijinallığı ilə seçilən bədii əsər kimi yadda qalmışdır.

## Ədəbiyyat / *References*

1. Aytmatov Ç. Kassandra damğası (Rahib Filofeyin Roma Papasına məktubu) // "Ədəbiyyat qəzeti", 2014, 21 noyabr.
2. Bağırlı A. Ağrılı həqiqətlər romanı // "Azərbaycan" jurnalı, 2014, №3, s.182-187.
3. Həbibbəyli İ. Ədəbi tarixi yaddaş və müasirlik / İ.Həbibbəyli. – Bakı: Nurlan, 2007, 689 s.
4. Hüseyn C. İblis. Seçilmiş əsərləri [5 cilddə]. /C.Hüseyn. – Bakı: Lider, c.3, 2005, 304 s.
5. Qarayev Y. Meyar şəxsiyyətdir / Y.Qarayev. – Bakı: Yazıçı, 1988, 231 s.
6. Rudyakov P. Arzular, ağrılar romanı // "Ulduz" jurnalı, 1987, № 11, s.23-27.
7. Səmədoğlu V. Mən burdayam, ilahi...: şeirlər və poema / V.Səmədoğlu. – Bakı: Gənclik, 1996, s.197.
8. Səmədoğlu Y. Seçilmiş əsərləri / Y.Səmədoğlu. – Bakı: Şərq-Qərb, 2005, 320 s.
9. Vəkilov M. Ömür dedikləri bir karvan yolu / M.Vəkilov. – Bakı: Yazıçı, 1986, 190 s.
10. Vəkilova X. Olmayan xəyanət // "El günü" jurnalı, 2003, 12 dekabr, s.12.
11. Vurğun S. "Vaqif" dramı. Seçilmiş əsərləri, IV cild. / S.Vurğun. – Bakı, Şərq-Qərb, 2005, s.7-136.

# Тема репрессий в азербайджанской прозе 1980-х годов
## (*По роману «День казни»*)

**Мехман Гасанли**
Доктор философии по филологии, доцент
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: mehmanhasanli @anas.az

**Резюме**. В статье исследуется роман Юсифа Самедоглу «День казни», ставший одним из наиболее значимых образцов азербайджанской прозы 1980-х годов. Роман рассматривается как литературное отражение трагических репрессий 1930-х годов. В нём глубоко раскрывается репрессивная политика империи в отношении азербайджанского народа, приведшая к казни сотен представителей интеллигенции. Кроме того, роман выделяется как произведение, вобравшее в себя ряд ведущих направлений современной мировой литературы. В исследовании также рассматривается отражение в тексте романа личной биографии автора.
**Ключевые слова**: Юсиф Самедоглу, «День казни», Сади Эфенди, роман, репрессии